**Vətənimizin minilliklərin dərinliyinə gedən böyük tarixi var. Bu minilliklər ərzində xalqımız möhtəşəm maddi-mənəvi mədəniyyət formalaşdırmış, uzun əsrlər boyu əməyə, yaşayıb-yaratmağa, tikib-qurmağa olan həvəsinin nəticəsi kimi böyük mədəniyyət abidələri yaradıb, bəşəriyyətə bəxş etmişdir. Ölkəmizin coğrafi baxımdan Şərq və Qərb sivilizasiyalarının qovuşduğu məkanda yerləşməsi əsrlər boyu burada formalaşmış ümumbəşər və milli dəyərlərin memarlıq və inşaat nümunələrinə də sirayət etməsi üçün əlverişli şərait yaratmışdır. Əsrlər boyu daş yonub, kərpic kəsib tikinti aparmaqla "Azərbaycan" adlı bir dünyanı yaradıb-yaşadan, "tikdim ki, izim qala" amalı ilə milli memarlığı formalaşdıran xalqımız ictimai-iqtisadi formasiyaların hər birində zamanın tələbinə, həyatın çağırışına müdrikcəsinə yanaşmış, daşdan maddiləşmiş möhtəşəm yaddaş hifz edə bilmişdir.**

Dövrümüzə çatan çoxsaylı meqalitik qurğular, arxeoloji qazıntılar nəticəsində aşkar edilmiş qədim yaşayış məskənləri, siklopik qalalar və başqa qədim tikinti nümunələri xalqımızın inşaat mədəniyyətinin çox dərin köklərə malik olduğundan xəbər verən tarixi sübutlardır. Antik və ilkin orta əsrlər dövründə Qafqaz Albaniyası və Atropatena dövlətlərinin yaranması və inkişafı, mədəniyyətlərarası əlaqələrin genişlənməsi həyatın bütün sahələri kimi memarlıq və inşaat sənətinin də sürətli inkişafına təkan vermiş, yeni memarlıq növlərinin, mütərəqqi inşaat texnikasının formalaşmasına şərait yaratmışdır.

Orta əsrlər dövrü Azərbaycanda şəhərlərin xüsusilə böyük sürətlə inkişafı ilə səciyyələnir. Tarixi ticarət yollarının üstündə yerləşən Təbriz, Bərdə, Gəncə, Naxçıvan və başqa şəhərlərimiz bu dövrdə ölkəmizin hüdudlarından çox uzaqlarda öz şəhərsalma mədəniyyəti, möhtəşəm tikililəri, zəngin sənətkarlıq nümunələrilə tanınırdı. Müdafiə istehkamlarının, mülki, dini və memorial tikililərin bizə çatmış nümunələri, orta əsr tarixçilərinin və səyyahlarının yazılı mənbələrdəki məlumatları bu dövrdə Azərbaycanın memarlıq və inşaat sənətinin ən yüksək səviyyəyə çatmasını, sözün əsl mənasında memarlıq incilərinin yaranmasını göstərir.

XI-XIII əsrlərdə Azərbaycan memarlığının əhəmiyyətli nailiyyətlərindən biri memarlıq məktəblərinin yaranması idi. Bu yerli təbii-iqlim şəraiti və iqtisadi vəziyyəti, inşaat materiallarının xüsusiyyətlərini əks etdirən memarlıq və inşaat texnikasının lokal ənənələrinin daha da inkişaf etməsi üçün vacib amil idi. Digər tərəfdən, nəsillərdən-nəsillərə ötürülən, ustad memarların öz şagirdlərinə öyrətdiyi sənət "sirləri" hər birinin özünəməxsus bədii və texniki üslubu olan memarlıq məktəblərinin formalaşmasına gətirib çıxarmışdı. Təbriz-Naxçıvan, Şirvan-Abşeron və Aran me-marlıq məktəblərinin formalaşması Azərbaycan memarlığının ümumi inkişafını, bədii və konstruktiv zənginliyini, memarlıq və inşaat xüsusiyyətlərinin cilalanmasını təmin edirdi. Beləliklə, hər memarlıq məktəbinin bədii və konstruktiv xüsusiyyətləri minlərlə memar və usta-inşaatçıların sənətində yeni bədii çalarlar, naxışlar, konstruktiv və texniki üsullarla zənginləşirdi. Əsrlərdən bəri toplanmış təcrübə və ənənələr Azərbaycan memarlıq və inşaat sənətini bütün Şərqdə tanıtmışdır. Bakıdan, Şamaxıdan, Təbrizdən olan memarlar və ustalar tək öz şəhərlərində deyil, hətta Mərkəzi Asiya, Yaxın Şərq və Hindistanda da nadir sənət nümunələrinin tikintisində iştirak etmiş və doğma memarlıq məktəblərini şöhrətləndirmişlər.

Orta əsrlərdə inşaat işlərinin yerinə yetirilməsi üçün peşəkar qruplar, yaxud həmkar sexləri yaradılırdı. Tikinti üçün zəruri olan, sənət nümayəndələrini birləşdirən bu sexlər peşəkarlıq vərdişlərinin öyrənilməsini, şagirdlik qaydası ilə sənətin nəsildən-nəslə keçməsini, ustalığın mükəmməlləşməsini təmin edən təhsil qurumları idi. Binanın tikintisi layihənin müəllifi, eyni zamanda inşaat işlərinin rəisi olan memara tapşırılırdı. Memarın yanında şagird kimi çalışan gənclər ondan öyrəndiyi nəzəriyyə və təcrübəni sonra özləri tikdiyi binalarda və müxtəlif təyinatlı qurğularda tətbiq edir və növbəti nəslə öyrədirdilər. Zaman keçdikcə, inşaat sənəti inkişaf edir, dövrün tələblərinə uyğun memarlıq növləri və nümunələri ilə paralel inşaat texnikası sahəsində daha mütərəqqi üsullar yaranırdı. Lakin memarlıq və inşaat sahəsində gənc peşə sahiblərinin hazırlanması ənənəvi formada davam edirdi.

XIX əsrin 80-ci illərində ölkəmizdə sənayenin inkişafı fonunda texniki peşələrə marağın artması zamanın tələbi idi. Müvafiq tədris sahəsinin yaranmasına, yeni tipli ziyalı təbəqəsinin - milli mühəndis və texniki kadrların formalaşmasına, nəhayət, yüksək texniki təhsil verən məktəbin açılmasına doğru yeni bir yol açılırdı. Kapitalizmin inkişafı həyatın bütün sahələrinə, o cümlədən tikinti sahəsinə də böyük dəyişikliklər gətirirdi. Yeni dövrdə tikinti fəaliyyətinin miqyasının artması, yeni inşaat texnologiyalarının və materialların, daha mürəkkəb memarlıq kompozisiyalarının tətbiq edilməsi memar və inşaatçıların peşə hazırlığı qarşısında daha ciddi tələblər qoyurdu.

Dövrün çağırışlarına cavab verə biləcək təhsil ocaqları olmadığı üçün Azərbaycanda həyata keçirilən böyük tikinti işlərinə əcnəbi mütəxəssislər cəlb edilirdi. XIX-XX əsrin əvvəllərində bu sahədə çalışan azsaylı azərbaycanlı memar və mühəndislər əsasən Rusiyanın universitetləri və akademiyalarında təhsil alanlar idi. Qasım bəy Hacıbababəyov, Zivər bəy Əhmədbəyov, Məmməd Həsən Hacınski, Məşədi Mirzəqafar İsmayılov və b. milli memarlıq və inşaat təhsilinin formalaşmasını arzulayır, öz yaradıcılıqları və ictimai fəaliyyətləri ilə o günü yaxınlaşdırırdılar. 1880-ci ilin fevral ayının 19-da Bakıda sənət məktəbinin açılması barədə qərar qəbul edilməsi çoxdan gözlənilən ictimai-mədəni hadisə idi. Memarlıq və inşaat ali təhsil məktəbinin formalaşdırılmasında ilk ali təhsil ocağımızın - Bakı Dövlət Darülfünunun təsis edilməsinin də böyük mənəvi dəstəyi olmuşdur.

1920-ci ildə xalqın böyük ziyalısı Nəriman Nərimanovun imzaladığı 16 noyabr tarixli sərəncamı ilə Bakıda Politexnik İnstitutunun yaradılması və onun tərkibində inşaat mühəndisliyi ixtisası üzrə kadr hazırlığının başlanması uzun illər ərzində formalaşmış zərurətdən irəli gəlirdi. Bu gün həmin tarixi hadisədən 95 il keçib.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1975-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun yaradılması ölkəmizdə memarlıq və inşaat sahəsi üçün kadr hazırlığının yeni mərhələsinin əsasını qoydu. Ölkə rəhbərinin memarlığa, inşaata, bütövlükdə quruculuq işlərinə verdiyi böyük önəm, bu sahə üçün mütəxəssis hazırlığına diqqətin və qayğının artmasına səbəb oldu. Yeni yaradılmış İnstitutun maddi bazası quruldu, pedaqoji potensialı gücləndi, yeni ixtisaslar açıldı, memar və inşaat mühəndisi ixtisasının cəmiyyətdə nüfuzu artdı. Bu dövrdə AzİMİ tək Azərbaycan üçün deyil, bütün sovetlər ölkəsi və xarici ölkələr üçün də kadr hazırlayırdı. Azərbaycan müstəqilliyini yenidən bərpa etdikdən sonra öz təhsil sisteminin tamhüquqlu sahibinə çevrilmişdir. Məhz bunun nəticəsidir ki, 1995-ci ildən başlayaraq Azərbaycan təhsilində aparılan islahatlar Azərbaycan Memarlıq və İnşaat Universitetinin də fəaliyyətində böyük dəyişikliklər yaratmış, mütəxəssis hazırlığını yeniliklərlə zənginləşdirmişdir.

Son illər elm və təhsil sahəsində qazanılan uğurlar ümummilli lider Heydər Əliyevin respublikamızda müəyyənləşdirdiyi təhsil strategiyası ilə sıx bağlıdır. Bu siyasətin davamçısı, möhtərəm Prezident İlham Əliyevin Azərbaycan Memarlıq və İnşaat Universitetinin maddi-texniki bazasının yaxşılaşdırılması, burada müasir təhsil şəraitinin yaradılması barədəki sərəncamları Universitetdə elmi-pedaqoji fəaliyyətin müasir tələblər səviyyəsində aparılması üçün zəruri maddi-texniki baza və işgüzar mühit yaratmışdır. Təhsilin inkişafı və müasirləşməsi üçün Avropa kredit transfer sisteminə keçid həlledici rol oynamış və yeni imkanlar açmışdır.

40 illik yubileyini qeyd edən Azərbaycan Memarlıq və İnşaat Universiteti təhsilin dünya standartları səviyyəsinə çatdırılmasını, ölkənin müasir tələblərə cavab verən mütəxəssislərlə təmin edilməsini və dövlətin təhsil siyasətinin uğurla icra olun-




masını özünün strateji hədəfi kimi müəyyənləşdirmişdir. Bu hədəfə istiqamətlənmiş fəaliyyət memarlıq və inşaat sahəsində ali təhsilin 95 illik ənənələrinə, universitetin professor-müəllim heyətinin yüksək elmi, pedaqoji və peşəkarlıq potensialına söykənir.

AzMİU inkişaf edir, yeniləşir, intellektual potensialını yüksəldir, mütəxəssis hazırlığının keyfiyyətini artırmaq, dövrün çağırışlarına cavab vermək üçün yorulmadan fəaliyyət göstərir. Memarlıq və inşaat sahəsində ölkəmizdə ən iri elmi-tədqiqat mərkəzi olan Universitetin alimləri aktual istiqamətlərdə elmi araşdırmalar aparır, təhsilin məzmununu elmi nailiyyətlərlə zənginləşdirir, beynəlxalq elmi əlaqələrini günbəgün genişləndirirlər.

Bu kitabın müəllifləri ali memarlıq və inşaat təhsilinin 95 illik tarixini və ulu öndər Heydər Əliyevin Azərbaycan təhsil sisteminə bəxş etdiyi Azərbaycan Memarlıq və İnşaat Universitetinin 40 il ərzində həyata keçirdiyi fəaliyyətinin əsas nəticələrini oxuculara çatdırmağı qarşılarına məqsəd qoymuşlar. Ümid edirik ki, kitabda əks olunan təhsil ocağımızın keçdiyi tarixi yol, oxucuların memarlığa, inşaata, quruculuq fəaliyyətinə marağını daha da artıracaq.

Kitab nəşrə hazırlanarkən arxiv sənədlərindən, müxtəlif statistik məlumatlardan, AzMİU-nun tarixi muzeyinin materiallarından, təhsil ocağının tədris, elmi-tədqiqat və maliyyə-təsərrüfat fəaliyyətinə dair illik hesabatlarından, həmçinin mövzu ilə bağlı çap olunmuş bəzi kitablardan (Azərbaycan Memarlıq və İnşaat Universiteti. Bakı, 2002; Əzizbəyov adına Azərbaycan İndustiriyal İnstitutu. Yubiley məcmuəsi. Bakı, AzİI nəşriyyatı, 1940; AzPİ Böyük Oktyabr Sosialist İnqilabının 40 illiyi qarşısında. Bakı, 1957; Avropada və Asiyada neft-qaz təmayüllü ilk texniki ali təhsil müəssisəsi. Bakı, "Çaşıoğlu" nəşriyyatı, 2010; İmdad Tağıyev. Azərbaycan Texniki Universiteti. 1920-2003-cü illər. Bakı, "Təhsil" nəşriyyatı, 2001 və b.) istifadə edilmişdir.

**Gülçöhrə MƏMMƏDOVA,**
**memarlıq doktoru,**
**professor, Əməkdar memar,**
**AzMİU-nun rektoru.**